# KIBRIS PROBLEMİ VƏ KOFİ ANNAN PLANI

**R.B.ASLANOV**
***Bakı Dövlət Universiteti***

Kıbrıs probleminin meydana gəlməsindən sonra bu məsələ Türkiyə Cumhuriyyəti ilə Yunanıstan arasında münasibətləri kifayət qədər gərginləşdirərək, ilk öncə Şimali Atlantika İttifaqına daxil olan dövlətlərin müzakirə obyektinə çevrilmişdir. Bu problemin həlli yönümündə BMT-də bir sıra mühüm qərar və qətnamələr qəbul etmişdir.

İstər BMT və istərsə də digər beynəlxalq təşkilatların ciddi cəhdinə baxmayaraq adanın rum və türk toplumlarının bir-birinə qarşı ittihamları və rum-yunan ikilisinin türk toplumunun hüquqlarını tanımaması üzündən beynəlxalq təşkilatların bütün səyləri XX əsirin 70-90-cı illərində heç bir nəticə verməmişdir.

XXI əsrin əvvəllərindən Birləşmiş Millətlər Təşkilatı Kibrıs probleminin həllinə yenidən qayıtdı. Bu baxımdan BMT-nin Baş katibi Kofi Annanın planını xüsusi qeyd etmək lazımdır. Çünki, artıq XXI əsrin başlanğıcından Kıbrısın vahid dövlət halında Avropa Birliyinə qəbul edilməsi məsələsi gündəmə gətirilmişdi. Buna görə də Kıbrıs məsələsinin həllində BMT də müəyyən tədbirlərə əl atdı. Bu məqsədlə BMT Baş katibinin xüsusi nümayəndəsinin iştirakı ilə Kuzey Kıbrıs Türk Cümhuriyyətinin prezidenti R.Denktaş rum-yunan tərəfinin prezidenti Kleridisi 2001-ci ilin noyabrında açıq dialoqa dəvət etdi. Belə bir görüş həmin il dekabrın 4-də rum-türk sərhəd zolağı olan «Yaşıl xəttdə» təşkil edildi. Görüşdə türk və yunan toplumlarının bərabərhüquqlu eyni hüquqa malik federativ dövlət qurulması məsələsi müzakirə olundu. Kleridis federativ quruluş planını qəbul etmədiyindən danışıqlar heç bir nəticə vermədi (1, s. 46).

Kıbrıs adasının hər iki tərəf arasında danışıqlar BMT Baş katibinin xüsusi nümayəndəsi A.Sotonun vasitəçiliyi ilə 2002-ci il yanvarın 16-dan iyuna qədər yenidən davam etmişdir.

Bu görüşdə əslində Avropa Birliyinin Kopenhagen zirvə toplantısı ərəfəsində Kıbrısın bütöv dövlət halında AB-yə qəbulu məsələsi haqqında vahid platforma hazırlanmalı idi. Lakin rumların mühafizəkarlığı üzündən bu danışıqlar da nəticəsiz qaldı (2, s. 206).

Danışıqların nəticəsiz başa çatmasından sonra adada ədalətli barışıq məqsədi ilə BMT-nin baş katibi K.Annan hər iki toplumun liderini 2002-ci ilin oktyabırında Nyu-Yorka dəvət edərək burada Kıbrıs məsələsinin həlli haqda ilk planını tərəflərə təqdim etdi. Planda İsveçrə modelində iki federativ quruluş yaradılması nəzərdə tutulurdu (3).

Lakin planda türk toplumunun təməl hüquqlarının tam öz əksini tapmadığını elan edən R.Denktaş onun yenidən işlənilməsinə ehtiyac olduğunu bildirərək onu qəbul etmədi. Rum lideri Kleridis də planın tam hazır olmadığını elan edərək onu rədd etdi (4, s. 28).

Kıbrıs probleminin həllinə aid K.Annan planı müzakirə olunduğu zaman Avropa Birliyinin Kopenhagin zirvə toplantısında Kıbrısın AB-yə qəbulu haqda planın şərtləri açıqlandı. Həmin plana uyğun olaraq rumlarla türklər arasında birləşmə haqda qərar əldə olunardısa, Kıbrıs bütöv dövlət kimi, türklər birləşməyə razılıq verməzsə adanın yalnız rum toplumu Avropa Birliyinə qəbul edilirdi (4). Avropa Birliynin əsas tələbindən biri də adadan Türkiyə silahlı qüvvələrinin çıxarılması idi. Belə olduqda türk toplumu yenidən yunanların təzyiqi altına düşür və onun burada yaşamasına heç bir təşkilat qarantiya vermirdi. Buna görə Türkiyə hökuməti Kopenhagen qərarını beynəlxalq hüquqa zidd qərar kimi rədd etdi (4, s. 29).

Annan planı dolayı yolla Türkiyəni KKTC-ni müdafiədən əl çəkməyə məcbur edirdi. Türkiyə və KKTC-nin birgə təşkil etdiyi konfransda K.Annan planının Sevr müqaviləsinə bənzədiyini göstərərək onun qəbul edilməsini qeyri-mümkün hesab etdilər.

BMT adından təqdim olunan K.Annan planının ilkin variantına görə adada vahid dövlət strukturu bərpa olunmalı, tədricən adadan xarici qoşunlar çıxarılmalı və yalnız bundan sonra Kıbrısın Avropa Birliyinə bütöv halında qəbul edilməsini təmin etməyin mümkünlüyünü irəli sürürdü. Bu planda QKTÇ-nin ləğvi irəli sürülsə də türk toplumunun mənafelərini qoruya biləcək heç bir variant irəli sürülmürdü (5, s. 30). Əsas məsələ bundan ibarət idi ki, türk toplumunun suverenliyi haqda müddəa sənəddə öz əksini tapmamışdı. Burada İsveçrə və Belçika federal qanunverici orqanlarına uyğun layihə irəli sürülsə də, onlardan fərqli olaraq türk toplumuna öz səlahiyyətləri çərçivəsində xarici dövlətlərlə iqtisadi, siyasi və mədəni əməkdaşlıq haqda müqavilələr bağlamaq hüququ verilmirdi (6, s. 90).

K.Annan planının birinci variantında türklərə 1960-cı ildə verilən veto hüququ verilmir, 9 nəfərdən ibarət prezidentlik şurasında türklər cəmi iki nəfərlə təmsil olunurdu, prezident və vitse prezidentlər 20 aydan bir dəyişdirilməli idi. Bu layihəyə görə, türklərə azlıqda qalan toplum kimi heç bir hüquq verilmirdi. K.Annan planına əsasən türklərin əlində olan 3241 min km$^2$ ərazinin 21%-nin rumlulara verilməsini, daha sonra türklərin yerləşdiyi 11,6% ərazidən 55 min türkün köçürülməsi və burada 60 minlik rum toplumunun yerləşdirilməsi nəzərdə tutulurdu. Bəzi ərazilər, o cümlədən Gözəlyurd bölgəsi ilə birlikdə türklərin nəzarətindən olan kənd təsərrüfatına yararlı olan torpaqların 60%-i, su mənbələrinin 71%-i rumlara verilməli, türklərə isə adanın şimalındakı, əkin üçün yararsız Beşbarmaq dağları verilirdi. Bu şəkildə Annan planı qəbul edilərdisə türklər əsas ərzaq məhsullarının naringi istehsalının 67%-ni, kartofun və dənli bitkilərin 75%-ni, səbzənin 50%-ni itirirdi (6, s. 91).

K.Annan planına əsasən hər iki toplum arasından sərhədlər 1974-cü ilə qədər mövcud olan çərçivədə müəyyən edilir və adada asayişin bərpası üçün 2011-ci ilədək türk və yunan qoşunlarının sayı 6 minə, 2018-ci ilədək ixtisar edilərək 3 minə və daha sonra Sürix-London müqaviləsində nəzərdə tutulduğu kimi qarant dövlətlərdən türk silahlı qüvvələrinin sayı 650 və yunan silahlı qüvvələrinin sayı 350 nəfərdən ibarət olmalı idi (7, s. 65). Razılaşmanın yerinə yetirilməsinə BMT sülh məramlı qüvvələri nəzarət etməli idi.

Bununla K.Annan planına görə, adanın demilitarizasiyasına nail olunacağına güman edilirdi. QKTC-nin prezidenti, Annanın bu planını

Türkiyənin Avropa Birliyinə daxil olmasında bir görüntü, Kıbrısın türklərdən təmizlənməsi kimi qiymətləndirərək onun qəbul edilməzliyini bəyan etdi (8, s. 23).

K.Annan planına skeptik yanaşan QKTC-nin baş naziri M.Tələt bu planın təkmilləşmiş variantda yenidən müzakirəsinin keçirilməsinə və iki toplumun Avropa Birliyinə birgə qəbul edilməsi üçün irəli sürülən layihənin müzakirəsinə başlanmasına razılıq verdi.

Türkiyənin Avropa Birliyinə daxil olması üçün türk silahlı qüvvələrinin Kıbrısdan çıxarılması məsələsi önə çəkildiyi üçün Türkiyənin baş naziri R T. Ərdoğan da danışıqların vacibliyini 2004-cü il Davosda BMT-nin Baş katibi ilə görüşündə bir daha irəli sürdü.

Kıbrısın lideri prezident Papadopulos da Annan planı əsasında iki toplum arasında danışıqlara başlamağa razılıq verdi. 2004-cü il fevralın 10-13-də Nyu-Yorkda rum-türk dialoqu baş tutdu və onlara problemin üçmərhələli cədvəl üzrə həllinin layihəsi təqdim edildi. Layihənin birinci mərhələsində Kıbrısın iki toplumunun arasında danışıqlar bərpa edilməli idi. İkinci mərhələdə hər iki tərəfi qane edən qərarın qəbul edilməsi üçün Türkiyə və Yunanıstan nümayəndələrinin danışıqlara qoşulması nəzərdə tutulurdu. Üçüncü mərhələdə BMT Baş katibinin planında sonuncu düzəlişlər edilməklə rum və türk toplumları arasında ayrı-ayrılıqda referenduma çıxarılmalı idi.

Bu problem Türkiyə və Yunanıstanın xarici işlər nazirləri və 2004-cü il martın 28-də Türkiyənin Baş naziri R.T. Ərdoğan və Yunanıstanın baş naziri K.Karamanlis arasında geniş müzakirə olundu. 2004-cü il martın 29-da BMT-nin Baş katibi K.Annan 220 səhifəlik 9 min əlavədən ibarət Kıbrıs probleminin həllinə həsr olunan planı maraqlı tərəflərə əhatəli çərçivə sazişinin dördüncü variantını təqdim etdi. Bu variantda rum-yunan cütlüyü adanın cənubunda türk toplumunun yerləşməsi, şimalda yaşayacaq rumlar üzərindəki məhdudiyyətlər, türklərin tam təhlükəsizliyinə təminat, türk tərəfinə Avropa Birliyində xüsusi hüquqlar verilməsinə etirazlarını bildirdilər.

Türk toplumunun planında nəzərdə tutulan keçid dövrünün qisaldılmasına, vahid valyuta QKTC üçün həyata keçirilməli olan iqtisadi layihələrin qeyri-bərabərliyinə iradlar bildirildi. Planda adadakı rum və türk hərbi qüvvələrinin sayı, mülkiyyət məsələsi, sərbəst gediş-gəliş və hüquqi məsələlər qeyri-müəyyən təşkil edildiyindən buradakı boşluqların doldurulması üçün BMT baş katibinə qaytarıldı.

Plan yenidən işlənərək tərəflərin müəyyən iradları nəzərə alınmaqla 500 səhifəlik layihə rum və türk toplumunun müzakirəsinə verildi. Sonuncu variant 2004-cü il aprelin 6-da TBMM-nin də müzakirəsinə çağırıldı. Məclis şəffaf və düzgün referendum keçirilməsi və Türkiyənin qarant hüququnun saxlanması şərtilə referenduma razılığını bəyan etdi. Bəyanatda deyilirdi ki, Türkiyə şəffaf və düzgün referendum keçirilərsə, iki bölgə prinsipi qorunarsa, bir tərəfin digər tərəf üzərində hegemonluğu olmazsa, iki xalq arasında bərabərlik prinsipi gözlənilərsə, Türkiyə ilə QKTC arasında təməl prinsiplər saxlanılarsa Kıbrısdakı seçkiyə hörmətlə yanaşacaqdır (8).

K. Annanın yekun planına görə, qurulacaq Birləşmiş Kıbrıs Dövləti iki ayrıca subyektləri – Suveren Kıbrıs Rum Dövləti və Kıbrıs Türk Dövlətlərindən ibarət olmalı idi. Uzun müzakirələrdən sonra 2004-cü il aprelin 24-də K.Annan planı əsasında Kıbrısda referendum keçirildi.

Referendumda iştiraк edən türкlərin 70%-ə yaxını planın lehinə, 75%-dən çox rumlu isə əleyhinə səs verdi. Referendumun uğursuzluğunun səbəblərindən biri də Avropa Birliyinin referendumun nəticəsindən asılı olmayaraq Rum toplumunu Kıbrıs dövlətinin vahid namizədi кimi birliyə qəbul edəcəyi haqda bəyanatı olmuşdu. Referendumdan bir həftə sonra mayın 1-də rumlar Avropa Birliyinə üzv qəbul edildilər.

BMT-nin Baş кatibi K.Annan 2004-cü il iyunun 2-də TŞ-na verdiyi hesabatda Kıbrıs haqda planın rumlar tərəfindən qəbul edilməməsini təəssüflə qeyd edərəк Kıbrıs türкlərinə həsr olunan hissədə BMT TŞ-nin üzvlərini QKTC-yə qarşı tətbiq edilən qadağalara son qoymağa çağırdı. Annan, planın qəbul edilməsindən sonra Avropa Birliyində QKTC-yə qarşı sanкsiyaları bir qədər yumşaltdı, hətta QKTC-yə 259 milyon avro yardım haqqında Avropa Birliyinə üzv olan dövlətlərlə sərbəst ticarət haqqında qərar da qəbul etdi. Laкin Kıbrıs rumlarının qeyri-konstruкtiv mövqeyi nəticəsində bu qərar reallaşmadı (9).

BMT-nin Baş кatibinin müraciətindən sonra Azərbaycan Respubliкası QKTC-yə qarşı iqtisadi sanкsiyaları yumşaltmaq üçün Kıbrıs türкləri ilə hərtərəfli əlaqə yaradılması üçün qərarlar qəbul etdi.

BMT-nin Kıbrısda sülh yaratmaq səyləri adada türкlər tərəfindən hələ də gözlənilməкdədir.

## QEYDLƏR


1. Demirtaş S.B. Kıbrısta yeni süreç: Stratejiк analiz dergisi. cilt 2. sayı 21 ocaк, 2002.
2. Sabahattin İ. Kıbrıs barış hareкatının nedenleri-qelişimi sonucları. Lefкoşa 2003.
3. httr.//www trncinfo.com//Tanıtım dairesi /2002/Türкce/Tarih/ tarih htm.
4. Çağrı E. Korenhaq Zirvesinin ardından. «Türк yurdu» dergisi, Anкara 2003, cilt 23. sayı 187.
5. İsmayıl Ç. Kıbrısta çözüm vaкtı ve Denкtaşa desten «Türк yurdu» dergisi, Anкara: 2003 cilt 23, sayı 185.
6. Тору Щ., Ковзитондзе Т. Европеизация и разрешение конфликтов: конкретное исследование европейской периферии. М.: 2005.
7. Hüner T. «Annan planı». «Dolaylı Enosisi desteкlemeкde» Kıbrıs sorununun tarihcesi-2. Türкeli dergisi. Anкara: şubat 2004. sayı 106.
8. Bayram K. Kıbrıs məsələsi və Annan planı «Türк yurdu» dergisi. 2003. cilt 23. sayı 187.
9. httr//www BELGE net com/ TBMM-de Kıbrıs görüşmeleri... Annan planı ve gelişmeler... 2004, 6 nisan.


## КИПРСКАЯ ПРОБЛЕМА И ПЛАН К.АННАНА


Р.Б.АСЛАНОВ



### РЕЗЮМЕ

Кипрская проблема является одной из сложных вопросов современности, в решении которой роль ООН, безусловно, значима. В статье раскрыта суть плана К.Аннана по урегулированию данной проблемы. Здесь же изложены основополагающие принципы принятия в Евросоюз государства Кипр, в частности греческой общины.

**THE CYPRIAN PROBLEM AND K.ANNANA'S PLAN**

**R.B.ASLANOV**

**SUMMARY**

The Cyprian problem is one of complicated questions of the present in which decision the role of the United Nations is certainly significant. In article the essence of the plan of K.Annana on settlement of the given problem is opened. Here basic principles of acceptance in the European Community of the state Cyprus, in particular the Greek community are stated.